## İM və AN üzvü

AN xəbərini çatdırmaq bir çox üzvlərimizin sağalmasının vacib bir hissəsi olub, bəzilərimizin bacarıqlarını kəşf etməsinə və inkişaf etdirməsinə kömək edib. AN-in sağalma xəbəri sənin dəstəyinlə çox insana çata bilər. İM komitəsində iştirak sənə başqalarının həyatında müsbət dəyişiklik etmək şansı verir.

## İctimai məlumat nədir?

İM komitəsinin rolu AN haqqında dəqiq və aydın məlumatın ictimaiyyətə çatdırılmasını təmin etməkdir. Bizim icmamız haqqında məlumat tələbi hər zamankından daha çoxdur. Əzab çəkən asılıları icmamıza gətirən komitənin bir hissəsi olmaq, sözlə ifadə edilə bilməyən, yalnız yaşanaraq dərk edilə bilən bir mükafatdır.

## AN üzvünün məsuliyyəti nədir?

İctimaiyyət qarşısında özümüzü AN üzvü kimi tanıtdığımız zaman davranışımıza görə məsuliyyəti qəbul etməliyik. Bu, ictimai məlumatın bir formasıdır. Hər birimiz proqramımızla tanış olmayanlar üçün AN-in nümayəndəsi kimi görünə bilərik. Toplantılarımız və tədbirlərimiz üçün istifadə etdiyimiz məkanlara necə yanaşmağımız da AN-in bütövlükdə ictimaiyyətə necə görünməsinə təsir edir.

İctimai məlumat xidmətinin başqa bir forması Anonim Narkomanlar haqqında məlumat və ya təqdimatlar üçün edilən müraciətlərdə ortaya çıxır. Müraciət edilən zaman İM komitəsinin bir üzvü ilə əlaqə saxlanmalıdır. Əgər komitə üzvü ilə əlaqə saxlamaq mümkün deyilsə, sorğu qrup xidmətləri təmsilçisi (QXT) və ya ərazi sədrinə ötürülməlidir. Bu şəkildə müraciətləri idarə edirik, çünki hər bir müraciət dərhal və uyğun şəkildə diqqətə alınmalıdır. Bir müraciət edildiyində, bunun şəxsi yox, bütövlükdə Anonim Narkomanlara edilən bir müraciət olduğunu unutma.

## Anonimliyin əhəmiyyəti nədir?

Bu "biz" proqramıdır və ictimai məlumatda "mən bacarmaram, biz bacararıq" prinsipi həyati əhəmiyyət daşıyır. Anonimlik üzərində qurulmuş mənəvi əsasımız üzvlərin özbaşına hərəkət etməsi ilə ciddi şəkildə zərər görə bilər.

Biz nə soyadlarımızı verir, nə də mediada Anonim Narkomanlar üzvləri kimi görünürük. Mənəvi sağalma proqramımızın bir hissəsi kimi, təvazökar xidmət üslubuna üstünlük verərək, özümüzü ön plana çıxarmaqdan çəkinirik. Təcrübəmizə əsasən, AN üzvlüyü ilə bağlı "media ulduzu"na çevrilən üzvlər, həm sağalmalarının mənəvi əsasını təhlükəyə atmaq, həm də ictimaiyyətə AN-dəki sağalma prosesi haqqında yanlış təsəvvür yaratmaq riskinə gedirlər.

## Üzvlər necə iştirak etsin?

Hər bir üzvün İctimai Məlumat komitəsində yeri var. İM sənin töhfəni, təkliflərini, rəyini və iştirakını qiymətləndirir və buna ehtiyac duyur. Səni açıq şəkildə İM komitəsinin toplantısına qatılmağa dəvət edirik. Bir çox xidmət komitələri kimi, İM-in də həmişə könüllü əllərə və düşüncələrə ehtiyacı var.

## İşlər necə görülür?

Qruplar əsasən bir araya gələrək yerli xidmət komitəsi (YXK) yaradırlar. İctimai məlumat xidmətləri YXK-nın bir alt komitəsi tərəfindən yerinə yetirilir. İM komitəsi fərdlər, təşkilatlar və media kimi müxtəlif mənbələrdən məlumat müraciətləri alır.

İctimai məlumat vermək üçün bəzi üsullarımız bunlardır:

1. Dini qurumlar, vətəndaş təşkilatları, məktəblər və ya mediadan gələn çıxış tələbələrini cavablandırmaq.
2. Bizi necə tapmaq lazım olduğunu ictimaiyyətə bildirmək üçün plakat, flayer və digər ictimai xidmət elanlarını hazırlamaq və paylamaq.
3. Təlim günləri və seminarlar keçirmək.
4. Asılılarla əlaqəyə girə biləcək şəxslərə toplantı cədvəli, məlumat məktubları və broşürlər göndərmək.
5. Xəstəxanalar və müəssisələr komitəsi ilə ortaq layihələrdə əməkdaşlıq etmək.
6. Ayrı telefon xətti və ya xidmət ofisi olmadığı halda, İM komitəsi telefon xəttini idarə etməkdən məsul ola bilər.

Bu fəaliyyətlərdən hər hansı birinə qoşulmaq üçün yerli İM komitəsi və ya QXT-dən biri ilə danış. Biz sahib olduqlarımızı başqalarına verməsək, onları saxlaya bilmərik. İctimai məlumat komitəsində xidmət bizə tam olaraq bunu etməyə imkan verir.

Copyright © 2026 by
Narcotics Anonymous World Services, Inc.
Bütün hüquqlar qorunur

World Service Office
PO Box 9999
Van Nuys, CA 91409 USA
Tel. +1/818 773-9999
www.na.org

World Service Office–CANADA
Mississauga, Ontario

World Service Office–EUROPE
Brussels, Belgium
Tel. +32/2/646-6012

World Service Office–IRAN
Tehran, Iran
www.wsoiran.org

Bu AN İcmasının təsdiq etdiyi ədəbiyyatın tərcüməsidir

Narcotics Anonymous, , , , və The NA Way
Narcotics Anonymous World Services, Incorporated'in
qeydiyyata alınmış əmtəə nişanlarıdır.

ISBN 9781633805026 Azerbaijani 1/26

WSO Catalog Item No. AZ3115

Narcotics Anonymous®

Anonim Narkomanlar

IP Nr. 15-AZ

# İM və AN üzvü